

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 232 (23.143)

*5 dekabr 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – "Bakutel-2018" ilə tanış olublar.






## Uğurlu gənclər siyasətinin real bəhrələri

*Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi vəziyyət getdikcə dəyişməyə başladı. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən gənc nəslin vahid bir mərkəzdən idarə olunması üçün 1994-cü il iyulun 26-da Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yaradıldı. Yalnız bundan sonra bu sahənin inkişaf prosesi sürətləndi, gənclərlə iş sahəsində yeni strukturlar formalaşmağa başladı. Gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq aləmdə iştirakı təmin edildi, gənclər təşkilatları ilə iş gücləndirildi, bir sıra dövlət proqramları qəbul edildi.*

Gənclər siyasətinin davamı olaraq ulu öndər tərəfindən imzalanan sərəncama əsasən 1996-cı fevralın 2-də Azərbaycanda Gənclərin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsində əsas məqsəd dövlət gənclər siyasətinin uğurla icra olunması, gənclərə dövlət qayğısının artırılması, ölkə gənclərinin hər bir sahədə fəal iştirakını təmin etmələrinə şərait yaratmaq idi. 1997-ci il fevralın 1-də Gənclərin I forumunun ildönümü münasibətilə bir qrup gənci qəbul edən ümummilli lider Heydər Əliyev 2 fevralın Azərbaycanda Gənclər Günü kimi qəbul edilməsi barədə Sərəncam imzaladı. Forumda iştirak edən ulu öndər öz çıxışında gənclərə xitabən deyib: ***"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz, müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq".***

Bu tövsiyələr Azərbaycan gənclərinin qarşısında mühüm vəzifələr qoydu. Heç kəsə sirr deyil ki, gənclik bir millətin gələcəyinin yaşaması üçün təməl daşıdır. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli gənc nəslin yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır.

Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının bu istiqamətdə qəbul etdiyi dövlət proqramları həmin sahənin nə qədər vacib və aktual olduğunu göstərir.

Tarixən hər bir xalq öz xoşbəxt gələcəyinə olan ümidlərini, ilk növbədə, gənc nəslə bağlayır. Dünya ölkələrində gənclər sosial-iqtisadi inkişafın, cəmiyyətin islahatlarının əsas hərəkətverici qüvvəsi hesab olunur. Bu gün Naxçıvan Muxtar Respublikasında gənclər siyasəti Ali Məclisin Sədri tərəfindən yeni mərhələdə davam etdirilir. Qəbul edilən qərar və imzalanan sərəncamlar gənclərimiz tərəfindən alqışlarla qarşılanır. Bunun qarşılığında onlar muxtar respublikanın tanıdılmasında, mədəni-kütləvi tədbirlərin keçirilməsində, ictimai-siyasi həyatında fəal şəkildə iştirak edirlər. Bunun nəticəsidir ki, 2018-ci il gənclərimiz üçün uğurlu il kimi yaddaşlara həkk olundu. Naxçıvan bu il də beynəlxalq tədbirlərin, forumların, idman yarışlarının keçirildiyi bir məkana çevrildi.

Muxtar respublika gənclərinin yüksək ictimai-siyasi fəallığının ifadəsidir ki, Naxçıvan 2018-ci ildə ölkənin Gənclər Paytaxtı statusunu qazandı. Cari ilə İslam Mədəniyyəti Paytaxtı kimi qədəm qoyan doğma diyarımızda gənclər nümayiş etdirdi ki, onların internet resurslarından səmərəli istifadəsi muxtar respublikada gənclər üçün yaradılan şəraitin bir nümunəsidir. Belə şəraiti həyatımızın bütün sahələrində görmək olar.

Gənclərimiz tərəfindən Azərbaycançılıq məfkurəsinin düzgün dərk edilməsi Naxçıvanın strateji inkişaf hədəflərinə xidmət edən vacib amildir. Çünki muxtar respublikamızın inkişaf strategiyasının əsasında milli-ideoloji prinsiplər durur. Bu prinsiplər uzun illərdən dövrümüzədək qorunub saxlanılan milli irsimiz, tarixi ənənələrimizlə yanaşı, müasir dövrün çağırışlarına uyğun yeni hədəflərin, fikirlərin vəhdətində formalaşıb.

Yüzilliklərin gənc ölkəsinin gəncləri öz mədəni irsinə, kökünə, keçmişinə bağlı böyüyürlər. İsbat olunmuş teorem kimi: hər bir cəmiyyətin gəncləri öz mənəviyyatı ruhunda formalaşırlar. Məsələn, qədim Spartada gənclər nizam-intizamlılığı və qəhrəmanlığı ilə seçilir, cəsarət ruhunda tərbiyə olunurdular. Tarixən imperiyaların və sivilizasiyaların qovuşduğu məkanda yaşayan Azərbaycan xalqının mübarizlik ruhu onun xarakterinə və düşüncəsinə hopub. Mübariz Azərbaycan gənci hər zaman ata-babalardan miras qalan öz milli adət-ənənəsini, tarixini və irsini qoruyaraq gələcək nəsillərə ötürüb.

Cari ildə muxtar respublika gənclərinin əldə etdiyi uğurlar onu göstərir ki, Naxçıvan gəncliyi gündən-günə respublikamızın hər bir sahəsində uğur qazanmaqdadır. Məhz 2018-ci ildə idman sahəsində 311, gənclər sahəsində isə 292 tədbirin təşkil olunması, eyni zamanda 189 medalın, müxtəlif mükafat və təltiflərin qazanılması təsadüfi deyil.

Muxtar respublikamızda "Avropa günləri" çərçivəsində tam orta məktəblərdə, ali təhsil ocaqlarında bir sıra təqdimatların təşkili Naxçıvanın mədəni həyatında xoş xatirə kimi iz buraxdı. Həmçinin gənclərimiz Avropa İttifaqının üzvü olan ayrı-ayrı ölkələrin mədəniyyəti və tarixi haqqında yeni məlumatlar əldə etdilər. Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumunun keçirilməsi isə tarixi hadisə kimi yaddaşlara həkk olundu. Bu, onu göstərdi ki, qədim mədəniyyətə malik olan Naxçıvan bu gün bütün sahələrdə inkişaf edir, həmçinin diyarımız Türk dünyasının elm, mədəniyyət və maarifçilik mərkəzinə çevrilib.

Həmin forumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Elm, təhsil və mədəni inkişaf tarixən türk xalqlarını birləşdirib. "Kitabi-Dədə Qorqud" və "Manas" dastanları, Orxon-Yenisey, Qobustan və Gəmiqaya yazılı abidələri türk xalqlarının milli varlığının, təfəkkürünün və birliyinin ifadəsidir. Mövlana Cəlaləddin Rumi, Xoca Əhməd Yasəvi, Baba Nemətullah Naxçıvani kimi görkəmli mütəfəkkirlər ümumtürk mədəniyyətinin möhkəmlənməsinə öz töhfələrini vermişlər. Bu mədəniyyətdə payı olan Naxçıvan coğrafi cəhətdən də türk toplumlarının mərkəzində yerləşir. 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının doqquzuncu zirvə görüşünün, bu gün isə Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırır".*** Ali Məclisin Sədri bütün bunları nəzərə alaraq Naxçıvanda Türk Universitetinin yaradılması təşəbbüsünü irəli sürüb. Bu isə gələcəkdə Naxçıvanı, həm də Türk dünyasının tələbə-gənclərini bir araya gətirəcək mərkəzə çevirəcək.

Göstərilən etimad, əldə edilən uğurlar nəticəsində aktiv və avanqard qüvvə kimi gənclərin muxtar respublikanın həyatında öncül yer tutmaları, yüksək hədəflərə çatmaq üçün yaradılan şəraitdən istifadə bizim üçün zəngin bazadır. Bu, əbədi gəncliyin hər zaman arzularla, ideyalarla yaşayacağına, parlaq uğurlar qazanacağına əminlik yaradır.


**Azad CABBAROV**

***Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri***


## İpoteka kreditləşməsi əhalinin mənzillə təminatında mühüm əhəmiyyətə malikdir

Muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri çərçivəsində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Gənc və aztəminatlı ailələrin mənzil şəraitlərinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir, yeni yaşayış binaları tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilir, sosial məsələlərin həlli ilə bağlı əhəmiyyətli addımlar atılır. Aparılan sosial siyasətin mühüm bir istiqaməti isə vətəndaşlara mənzillərin ipoteka yolu ilə əldə edilməsi imkanlarının yaradılmasıdır.

Bu ilin ötən dövrü ərzində daşınmaz əmlakın dövlət reyestrində 292 ipoteka qeydiyyatı aparılıb. İpoteka krediti hesabına əldə edilmiş 64 mənzil, 16 fərdi yaşayış evi üzərində hüquqlar dövlət qeydiyyatına alınıb ki, bunun da 82,5 faizi Naxçıvan şəhərinin, 17,5 faizi isə muxtar respublikanın digər yaşayış məntəqələrinin payına düşür. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ipoteka ilə əldə edilən əmlakların qeydiyyatının sayı 25 faiz artıb.

Cari ildə ipoteka kreditləşməsi vasitəsi ilə əldə edilən mənzillərin hər kvadratmetrinin orta qiyməti 750 manat təşkil edib. İpoteka krediti hesabına, əsasən, iki və üçotaqlı mənzillərin alınmasına üstünlük verilib.

Onu da deyək ki, daşınmaz əmlakın ipotekası haqqında müqavilə daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır. İpotekanın dövlət qeydiyyatı ərizənin qeydiyyat orqanına daxil edildiyi gündən 3 iş günü müddətində aparılır. İpotekanın predmeti, əsas öhdəliyin mahiyyəti, icra müddəti və ipotekasaxlayan barədə məlumatlar müvafiq reyestrə daxil edildiyi andan ipoteka müqaviləsi dövlət qeydiyyatına alınmış hesab olunur.

İpoteka predmeti ipoteka krediti üzrə öhdəliklər tamamilə yerinə yetirildikdə yenidən aktiv əmlaka çevrilir. İpotekanın dövlət qeydiyyatı ipotekasaxlayanın ərizəsi və ya məhkəmənin qərarı əsasında ləğv olunur.

Hazırda Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı və dövlət qeydiyyatının ləğvi, ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması və bildirişin ləğvi, eləcə də daşınmaz əmlakın ipotekasının əlavə dövlət qeydiyyatı, sonrakı ipotekanın dövlət qeydiyyatı və dövlət qeydiyyatının ləğvi ilə bağlı altı elektron xidmət göstərilir. Vətəndaşlar, eləcə də hüquqi şəxslər komitənin internet saytına (*www.emlak.nakhchivan.az*) və Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalına (*www.e-hokumet.nmr.az*) daxil olaraq təqdim edilən xidmətlərdən yararlana bilərlər.

Qeyd edək ki, cari ilin ötən dövründə aparılan ipoteka qeydiyyatının üçdə iki hissəsi elektron xidmətlərdən daxil olmuş müraciətlər əsasında aparılıb. Bu isə vətəndaşlara operativ və keyfiyyətli xidmətlərin göstərilməsini təmin edir.


***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*İnkişaf edən bölgələrimiz*

# Yurdumuzun məğrurluq abidəsi – Sədərək kəndi



*Qızılı payızın barlı-bəhərli günlərindən birində yolumuzu Sədərəyə salırıq. Yurdumuzun məğrurluq abidəsi olan bu bölgənin bir-biri ilə qol-boyun olan şiş zirvəli, əzəmətli dağlarla əhatələndiyi, bu əzəmətin zaman-zaman burada yaşayanlara da sirayət etdiyindən hər biri bir vətən "daşı" olan insanları, onların torpaq sevgisi, vətənpərvərliyi, mübarizliyi, ən çox şəhidi olan yurd yerlərimizdən biri olan rayona gedirik. Maşınımız Naxçıvandan düz Sədərəyədək geniş və abad yollarla irəlilədikcə bir-birindən gözəl mənzərələr açılır gözlərimiz önündə. Xəyallar isə illər öncəyə aparır. Bu yollar nələrin şahididir. Muxtar respublikamızın blokadaya salındığı ilk illərdə yaranan böyük çətinliklərin müəyyən qədər azaldılması məqsədilə ümummilli liderimiz Heydər Əliyevin Türkiyə Respublikasının dövlət başçısı ilə danışıqlarının nəticəsi olan çıxış yolunun – "Ümid" körpüsünün salınmasının şahididir. Bu yollar bir vaxtlar özünün bərbad, keçilməz vəziyyətinə, indi isə hər gün yüzlərlə qonağın, nə gözəl yollardır, sözlərinə şahiddir.*

### Kəndlə tanışlıq

Bir azdan bir-birinə boyverən ağaclarda qızılı sarı ilə xınalı qırmızının yaratdığı gözəl harmoniya ilə əhatə edilən bir yaşayış məntəqəsinə daxil oluruq. Bura Sədərək rayonunun Sədərək kəndidir. Ağacların sıxlığından az qala görünməz olan inzibati binalarla maraqlanırıq. Öyrənirik ki, biri rayon mərkəzi xəstəxanası, biri mədəniyyət evi, digərləri isə Sədərək kənd 1 nömrəli tam orta və rayon musiqi məktəbləridir. Bayaqdan öz-özümə verdiyim, bu binalar nə üçün rayon mərkəzində deyil, kənddə yerləşir, – sualının cavabını da alıram. Sən demə, Sədərək kəndi rayonun ən böyük yaşayış məntəqəsidir. Ərazisi 123,2 kvadratmetr, əhalisinin sayı 8 min 814 nəfərdir. Burada 2 min 505 təsərrüfat var. Rayonun bir sıra idarə, müəssisə və təşkilatları üçün bu böyük yaşayış məntəqəsində yeni binalar inşa olunub.



### Ən çox şəhidi olan kənd

Qəhrəman oğullarının ucaltdığı məğrurluq abidəsi Sədərəyin qürur mənbəyidir. Bədxah qonşularımızın arzularını puç edən onlarla el oğullarının mətinliyi hesabına Sədərək bu gün başını dik tutur. İllərdir, hər kəsə, hər yerə örnəkliyi ilə dillər əzbərinə çevrilib bu yerd yerimiz. Ətrafdakı bir-birləri ilə çiyin-çiyinə dayanan dağlara tamaşa edərkən müqəddəs "Kitabi-Dədə Qorqud" dastanımızdan tanış olduğumuz dağ kultunu xatırlayıram. Dastanda dağ ucalıq, ata, qoruyucu kimi təqdim olunur. Dağ uğurdur, yurdun dayağıdır. Bəs oğullar kimə bənzəyirlər, təbii ki, atalarımıza. Elə sədərəklilər ətraflarındakı "dağ" atalarından alıblar, sən demə, bu mübarizliyi.

Rayonun, ümumilikdə, 52 şəhidi var. Onların 36-sı bu kəndin tale payına düşüb. 36 şəhid 36 ailənin kədəri deməkdir, 36 ananın tükənməz göz yaşı, 36 atanın əyilən qəddidir. Lakin torpaq müqəddəs, Vətən sevgisi hər şeydən üstün olduğu üçün həmin ailələrin sonsuz kədərinin içərisində daim bir qürur hissi də var. Çünki yurdun dar gününün tarixini yazan onların övladları olub. Hər birimizin ruhları qarşısında baş əydiyimiz şəhid övladları.

### Kəndin təhsil ocaqları

Kəndlə ilk tanışlığımız görüntüsü ilə müasir ali təhsil ocağını xatırladan 1 nömrəli məktəblə başlayır. 2014-cü ildə istifadəyə verilən 810 şagird yerlik məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Burada 790 şagird təhsil alır. Məktəbdə fizika, kimya, biologiya laboratoriyaları, 5 elektron lövhəli, 4 kompüter sinfi, 3 şahmat otağı, kitabxana, hərbi kabinə, idman zalı, bufet var.

Ötən tədris ilində məktəbin 36 məzunu olub. Onlardan 28-i ali və orta ixtisas məktəblərinə qəbul üçün sənəd verib, 16-sı ali, 9-u isə orta ixtisas məktəblərinə daxil olub. Ali məktəblərə qəbul olunanlardan 4 nəfəri 500-600 intervalında, 2 nəfəri – Gülnar Səlimli 665, Ülkər Əliyeva isə 628 bal toplayıblar.

Muxtar respublikamızda zəhmətə verilən dəyərdən bu məktəbin müəllimləri də kənarda qalmayıblar. Onlardan Aydın Şahverdiyev "Tərəqqi" medalına, Sultan Rzayev "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüblər. Gənc nəslin təlim texnologiyasının düzgün qurulmasında tədris etdikləri fənlər üzrə fərqləndiklərinə görə Vəfa Həsənova, Məhərrəm Seyidov və Tahirə Qasımova ayrı-ayrı illərdə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibləri olublar.

Təhsil ocağında maraqlı bir faktla da qarşılaşdıq. Bir vaxtlar burada təhsil alan şagirdlərdən 7-si indi onlara dərs deyən müəllimləri ilə çiyin-çiyinə çalışır. Müəllimlərinin illərlə çəkdikləri əməyin bəhrəsi olan bu gənclər öz bilikləri ilə gələcəyimiz olan uşaqları bəhrələndirirlər. Onlardan bir neçəsi ilə söhbətləşirik. İngilis dili fənnini tədris edən Məhnurə Qarayeva deyir:

– Məktəbdə 4 ildir, çalışıram. İşə başladığım ilk günlər heç vaxt xəyalımdan çıxmır. Sənə dərs deyən müəllimlərlə bir yerdə işləmək adama o qədər çətin gəlir ki. Müəllimlər otağına daxil olanda çox utanırdım. Sonra elə müəllimlərimin köməkliyi ilə müəllim olmağı da öyrəndim. Bu gün də onların biliklərindən yararlanıram.

Sədərək kənd 2 nömrəli məktəb isə 2010-cu ilin 5 oktyabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Bu barədə məktəbin dərs hissə müdiri, "Tərəqqi" medalına layiq görülən Novruz Rəhimov xatirələrini bizimlə bölüşür:

– Cənab Prezidentimizin kəndimizə gəlməsi hər kəsdə ruh yüksəkliyi yaratmışdı. Bütün kənd bayram sevinci yaşayırdı. Biz müəllimlərin sevinci isə daha böyük idi. Çünki həmin gün həm də Beynəlxalq Müəllimlər Günü idi. Dövlət başçısının açılış mərasimində Sədərəklə bağlı söylədiyi qürurverici sözlər bu elin insanlarına verilən böyük dəyər oldu. Müəllim kollektivinə gənc nəslin yetişdirilməsi ilə bağlı tövsiyələri isə o vaxtdan bizim fəaliyyət proqramımıza çevrilib.

Məktəb 564 şagird yerlikdir, hazırda burada 366 şagird təhsil alır. Savadlı və hərtərəfli gənclər yetişdirmək üçün 1 nömrəli məktəbdə yaradılan şəraitin hər birini bu məktəbdə də görürük. Məktəb kitabxanasına daxil oluruq. Burada 5 min bədii ədəbiyyat və 5 min 15 dərslik məktəbin müəllim və şagird kollektivinin ixtiyarındadır. Diqqətimizi oxunması zəruri olan kitablardan ibarət guşə də cəlb edir. Kitabxana müdiri məlumat verir ki, hər biri bir tərbiyə, dünyagörüş mənbəyi olan kitablara məktəblilərin marağı böyükdür. Tez-tez keçirilən kitab müzakirələrində bunu aydın şəkildə görmək olur.

Bu məktəbin də zəhməti ilə fərqlənən müəllimləri dövlət qayğısı ilə əhatə olunublar. Onlardan Novruz Rəhimov, Vüsalə Əliyeva "Tərəqqi" medalına, Samirə Əliyeva və Pərvanə Rəhimova "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülüblər.

Təhsil ocağının uğurları da ürəkaçıcıdır. Ötən tədris ilində məktəbi bitirən 28 nəfərdən 16-sı ali məktəblərə daxil olub. Onlardan 2 nəfər – Nərgiz Salahlı 631, Əli Bayramov 517 bal toplayaraq yüksək nəticə göstərib. Maraqlıdır ki, məktəbin 8 məzunu Naxçıvan Tibb Kollecinə qəbul olunub. Onlardan bir nəfəri isə kollecin Hərbi feldşer işi ixtisasını seçib.

Sədərək kəndinin təhsil ocaqları haqqında ümumi olaraq onu söyləmək olar ki, burada vətənpərvər, torpağına, elinə bağlı, həm də müstəqil ölkəmizin gələcək inkişafında dəstxətləri olacaq gənclər yetişdirilir.

### Sədərəklilər torpağı qoruduqları qədər də əkib-becərirlər

Kəndin dörd bir tərəfindən boylanan meyvə ağacları, sıralanan üzüm bağları, bostan, tərəvəz sahələri burada yenə də ulu Dədə Qorqudun tövsiyələrini xatırladır: Torpağı qoruyursansa, əkməyə dəyər. Sədərək kəndinin sakinləri torpaqlarını qorumağı bacardıqları qədər də əkən, həm də əkin-biçinin dilini bilən adamlardır.

Kəndin 1800 hektar əkinəyararlı sahəsi var. Araz çayından başlanan bolsulu 3 suvarma kanalı əkin sahələrinə "can" verir. Həmçinin kənddə 76 artezian quyusunun olması da burada yaşayan zəhmət adamlarının su sarıdan problemlərinin olmamasından xəbər verir. Kənd camaatı üstünlüyü buğda, arpa, kartof əkinlərinə versələr də, gündəlik lazım olan digər tərəvəzləri də özləri yetişdirirlər. Taxıl zəmilərindən də bol məhsul tədarük olunub. Hazırda torpaq mülkiyyətçiləri gələn ilin məhsulu üçün şum qaldırılması, taxıl əkini ilə məşğuldurlar.

Kənddə 2008-ci ildən fəaliyyət göstərən dəyirman bu il təmir olunub, yeni avadanlıqlar gətirilib. Dəyirmanda kənd sakinlərinin öz taxıllarını üyütmək üçün hərtərəfli şərait yaradılıb.

Kartof əkininə də kənddə üstünlük verilir. Bu yerin bərəkətli torpaqları yerə atılan hər bir toxumu bitirib yetirmək gücündədir, – deyən kartofçu Süleyman Əbilov bu il 18 ton kartof istehsal edib. Zəhmət adamı onu da söyləyir ki, elə olub həyətyanı sahəmdə yazdan payıza bir yerdə üç dəfə ayrı-ayrı tərəvəzlərin əkinini keçirib, yaxşı da məhsul götürmüşəm.

Sədərək üzümü dadı ilə dillər əzbəridir. 25 hektardan çox üzüm bağları olan kənddə hər il tonlarla məhsul istehsal edilir. Kəndin üzümçüləri bu məhsulu bazara çıxardıqdan, özləri istifadə etdikdən, qohuma-qonşuya pay verdikdən sonra yenə də artıq qaldığını söyləyirlər. Gələcəkdə şərab zavodunun istifadəyə verilməsi bu sahənin daha da inkişaf etdirilməsinə öz töhfəsini verə bilər. Çünki bu torpaqlar üzüm üçün çox əlverişlidir.

Əkinçiliklə heyvandarlıq birgə inkişaf etdirilən sahələrdir. Kənddə sakinlər 1083 baş iribuynuzlu, 5063 baş xırdabuynuzlu, 7498 quş saxlayır. Buranın təmiz havası, güllü-çiçəkli məskənləri burada arıçılığın inkişafına da şərait yaradır. 640 arı ailəsindən bu yerin arıçıları ildə tonlarla məhsul əldə edirlər.

Bir sözlə, torpaq sevgisi və bir də zəhmətlə dostluq Sədərək kəndinin əmək adamlarının süfrələrinə onlarla adda və dadda nemətləri düzə bilmələri, əkin-biçindən söhbət düşəndə bu barədə alnıaçıq, üzüağ danışmaları ilə nəticələnir.

### Təəssürat

Getdiyimiz hər bir yerdən müxtəlif təəssüratlarla qayıdırıq. Bəzən, kaş ki heç ora getməzdim, bəzən isə adam heç oradan ayrılmaq istəmir, – deyirik. Sədərək rayonundan, onun eyniadlı kəndindən heç vaxt unutmayacağım təəssüratla ayrılıram. İndiyədək bu yurd yeri haqqında deyilənləri, burada dövlət qayğısı ilə yaradılanları öz gözlərimlə gördükdən, səmimi, qonaqpərvər, zəhmətkeş, dağlar qədər vüqarlı, məğrur insanlarını tanıdıqdan sonra, təbii ki, təəssüratım belə də olmalıdır.

**Mətanət MƏMMƏDOVA**

---

# Dayanıqlı iqtisadi artım təmin olunub

***Başa çatmaqda olan 2018-ci il istər dünya iqtisadiyyatı, istərsə də ölkəmizin mühüm iqtisadi əlaqələri olduğu yaxın region ölkələri üçün ciddi şəkildə dalğalanmalarla yadda qaldı. Bu dövrdə qlobal bazarların məruz qaldığı tərəddüdlər qarşısında milli iqtisadiyyatların davamlı artımına nail olunması üçün görülən tənzimləmə tədbirləri öz zəruriliyini bir daha ortaya qoydu. Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üzrə görülmüş işlər, bütövlükdə, ölkəmizdə regional iqtisadiyyatın inkişafı üzrə qarşıya qoyulmuş məqsədlərə çatmaq yolunda nümunə olmaqla bu il də öz əhəmiyyətini bir daha təsdiq etdi.***

Cari ildə muxtar respublikamızın iqtisadi inkişafının səviyyəsi haqda ümumi bitkin təsəvvürü ümumi daxili məhsulun həcminin artım dinamikası yaradır. Belə ki, Naxçıvan Muxtar Respublikasında 2018-ci ilin yanvar-oktyabr aylarında 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox, yəni 2 milyard 172 milyon 378 min manatdan çox ümumi daxili məhsul istehsalı mümkün olub ki, burada da ilk yeri 827 milyon 648 min 800 manat dəyəri ilə sənaye sahəsi tutur. Daxili ehtiyatlardan səmərəli istifadə olunması nəticəsində əldə olunmuş artım ümumi daxili məhsulun keyfiyyət göstəricisi olan əhalinin hər bir nəfərinə düşən həcmində də özünü göstərib. Bu göstərici daha çox artımla nəticələnərək 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 4 min 783 manata yaxın olub.

Təhlil olunan dövrdə muxtar respublikanın iqtisadi həyatının bütün sahələrində müsbət dinamika davam etdirilib. Sektorlar arasında bank-kredit fəaliyyətində daha çox artım müşahidə olunub. Belə ki, 2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 44 milyon 118 min 500 manat məbləğində kreditlər verilib ki, bu da bir il öncəki göstəricidən 1,7 dəfə çoxdur. Verilmiş kreditlərin 4 milyon 802 min 300 manatı və yaxud 10,9 faizi qısamüddətli, 39 milyon 316 min 200 manatı və yaxud 89,1 faizi uzunmüddətli kreditlər olub.

Cari ildə də real sektorun dəstəklənməsi nəticəsində iqtisadi artımda aqrar sektora düşən pay artıb. Belə ki, bəhs olunan dövr üçün kənd təsərrüfatı məhsulları istehsalında 4,1 faizlik artım müşahidə olunaraq 386 milyon 792 min manatdan çox həcmdə ərzaq məhsulları istehsal edilib.

Yerli istehsalın həcminin artırılması və beynəlxalq iqtisadi əlaqələrin miqyasının genişləndirilməsi ilə muxtar respublikanın xarici ticarət əlaqələrində də artım dinamikası qorunub saxlanılıb. Belə ki, cari ilin yanvar-oktyabr aylarında 374 milyon 768 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 330 milyon 369 min 200 ABŞ dolları təşkil edib, 285 milyon 970 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.



Naxçıvanda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, əhali tələbatlarının daha çox yerli məhsullar hesabına ödənilməsi, ixracyönümlü fəaliyyətin stimullaşdırılması ilə bərabər, həm də idxaldan asılılığın əhəmiyyətli dərəcədə azaldılması bu sahədə müsbət nəticələrin əldə olunmasına imkan verib. Belə ki, hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Təsərrüfat subyektlərində iqtisadi fəallığın qorunub saxlanılması burada işlə təmin olunmuş işçilərin gəlirlərinin də artımına təsir edib. Belə ki, cari ilin yanvar-sentyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 430 manata çatıb ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur.

Göründüyü kimi, muxtar respublikamızda sakinlərin rifahına və mədəni səviyyəsinə təsir edən tarazlı inkişafın təmin olunması istiqamətində görülən tədbirlər öz bəhrəsini verməkdədir. Bu isə cəmiyyətimizdə bərqərar olmuş möhkəm sabitliyin və davamlı olaraq həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin məntiqi nəticəsidir.

**Əli CABBAROV**

## “ADA” Universitetinin əməkdaşları Naxçıvan Dövlət Universitetində olublar



*“ADA” Universitetinin İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı Elnur Soltanov və Tələbə qəbulu şöbəsinin əməkdaşı Mahnur Abbasova Naxçıvan Dövlət Universitetində olublar.*

Tədbiri giriş sözü ilə açan universitetin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov ali təhsil ocağının elmi potensialı, maddi-texniki bazası və bu ali məktəbdə yerinə yetirilmiş beynəlxalq layihələr haqqında məlumat verib.

“ADA” Universitetinin İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı Elnur Soltanov muxtar respublika haqqında zəngin təəssüratlarını



bölüşüb. Naxçıvan Dövlət Universitetində mövcud olan elmi və texniki potensialı yüksək dəyərləndirib.

Dekan bildirib ki, 2006-cı ilin martında fəaliyyətə başlayan və Azərbaycan Diplomatik Akademiyası adı ilə Azərbaycan Xarici İşlər Nazirliyinin nəzdində qurulan ali təhsil ocağı Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli Sərəncamı ilə “ADA” Universiteti adlandırılıb.

Vurğulanıb ki, əsas məqsədi diplomatiya, ictimai münasibətlər, biznes, informasiya texnologiyaları və sistem mühəndisliyi üzrə qlobal liderlər hazırlamaq olan universitet 2009-cu ildən magistr, 2011-ci ildən isə bakalavr təhsil pillələri üzrə ali təhsil verir.

Diqqətə çatdırılıb ki, universitetdə dünyanın 43 ölkəsindən tələbə təhsil alır.

“ADA” Universitetinin Tələbə qəbulu şöbəsinin əməkdaşı Mahnur Abbasova ali təhsil ocağının strukturu, universitetə qəbul qaydaları barədə məlumat verib. Vurğulanıb ki, universitet seçmə fənlər və ümumi təhsil proqramı vasitəsilə yüksək potensiala malik məzunlar yetişdirir.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

*Təhsil millətin gələcəyidir*

## Məktəbəhazırlıq qrupları uğurlu təhsilin başlanğıcıdır



***Son dövrlərdə milli təhsilimizin inkişafına təsir edən amillərdən biri də tətbiq olunan yeniliklərdir. Uşaqların məktəbəhazırlıq qruplarının yaradılması da həmin tədbirlərin tərkib hissəsidir.***

Qeyd edək ki, məktəbəqədər yaş dövrü təkcə məktəb həyatına hazırlıq mərhələsi deyil, eyni zamanda uşaqlara bir çox dəyərlərin aşılandığı dövrdür. Çünki insanda təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə, onların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi də vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur və bu təhsil uşaqların təlim və tərbiyə prosesinin vəziyyəti və nəticəliliyi ilə müəyyən edilir.

Bəs hazırda ümumtəhsil müəssisələrində məktəbəhazırlıq qruplarının təşkili və fəaliyyəti hansı səviyyədə aparılır? Bu və ya digər suallarla Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Pərvin Mirzəyevaya müraciət etdik. Onun dediklərindən:

– Artıq bir neçə ildir ki, muxtar respublikamızın ümumtəhsil məktəblərində məktəbəhazırlıq qrupları fəaliyyət göstərir. Həftədə 4 dəfə keçirilən məşğələlər oktyabr ayının 1-də başlayır və may ayının 31-də başa çatır. Qrupda bir gün ərzində 3 məşğələ tədris olunur. Bir məşğələnin müddəti 30, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilib. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir. Belə qruplarda təhsil alan uşaqlara ev tapşırıqları nəzərdə tutulmur. Məşğələlərə davamiyyət və tədris olunan mövzu sinif jurnalında qeyd edilir, uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir. Təhsilə atılan ilk addım kimi mühüm əhəmiyyət daşıyan məktəbəhazırlıq qruplarında dərslər təcrübəli ibtidai sinif müəllimləri tərəfindən aparılır. Məqsəd uşaqların tədrisə hazırlıqlı başlaması, dərs prosesinə əvvəlcədən alışması və müvafiq bilikləri əldə etməsidir. Bu qruplarda uşaqların əqli, fiziki, sosial-emosional və nitq qabiliyyəti və digər bacarıqları inkişaf etdirilir.

Pərvin Mirzəyeva onu da qeyd etdi ki, 5-6 yaş dövrü uşaqların inkişafında çox mühüm bir dövrdür. Bu dövrdə uşaqlarda düşünmə, qavrama və ətraf mühitlə münasibətlərində mühüm dəyişikliklər baş verir. Həmçinin uşağın şəxsiyyət kimi formalaşmasının təməli qoyulur.

– Bu müddət ərzində uşaqlar nəyi öyrənə bilirlər? – sualını isə həmsöhbətim belə cavablandırdı ki, təlim prosesləri zamanı uşaqlar hərflərlə tanış olur, müxtəlif əşyalara və hadisələrə fikir bildirməyi, öz yaşıdları ilə ünsiyyət qurmağı və iş bölgüsünü öyrənirlər.

Dərs prosesi uşaqlarda təlimə, yaradıcılığa və dərketməyə maraq yaranmasına istiqamətləndiyi üçün ilin sonunda uşaqların ünsiyyət bacarıqlarında əhəmiyyətli irəliləmə hiss olunur, onlar nitqi dinləyib anlayır, sərbəst fikir bildirir, həm də daha rabitəli danışırlar. Həmçinin uşaqlar böyüklərə və həmyaşıdlarına qarşı xeyirxahlıq, qarşılıqlı kömək, dostluq, diqqət nümayiş etdirməyi öyrənirlər. Onlar hərfləri və rəqəmləri tanıyır, sadə riyazi əməlləri yerinə yetirə bilirlər. Uşaqlar bu yaşda kollektivə, məktəb həyatına öyrəndikləri üçün 1-ci sinifdə onlara məktəbə və dərslərə uyğunlaşmaq daha rahat olur.

Uşaqların daha çox nəyə həvəs göstərdiyini də öyrənmək istədik. Müsahibim bildirdi ki, onlar əyləncəli fiziki oyunları, həmçinin şəkil çəkməyi xoşlayırlar. Elə tapşırıqlar var ki, uşaqlar göstərilmiş nümunəyə əsasən verilmiş şəkli rəngləməli olurlar. İlk vaxtlarda uşaqların əksəriyyəti rəngləri ayıra bilmir, adlarını səhv salırlar. Bir müddət sonra isə rəngləri fərqləndirir və verilən tapşırığı asanlıqla yerinə yetirə bilirlər. Vurğulamaq istəyirəm ki, uşaqlar dərsə çox həvəslə gəlirlər. Bu məsələdə valideynlərin də rolunu qeyd etmək istərdim. Hər bir valideyn çalışır ki, övladı məşğələlərdə fəal iştirak etsin. Ona görə də onlar mütəmadi olaraq müəllimlərlə əlaqə saxlayır, evdə, əlavə olaraq uşaqlara nə öyrədə biləcəkləri haqqında soruşurlar.

Valideynlərdən söz düşmüşkən, məktəbdə olarkən övladları məktəbəhazırlıq qruplarına cəlb edilmiş valideynlərlə də həmsöhbət olduq. Naxçıvan şəhər sakini Zəkiyyə Abdullayeva söhbətində bildirdi ki, uşaqların bu məşğələlərə cəlb olunmaları onların məktəb həyatına, kollektivə alışmasına çox kömək edir. Əvvəllər elə olurdu ki, uşaqların çoxu sinif otaqlarına, müəllimlərə, digər yoldaşlarına alışana qədər uzun müddət vaxt keçirdi. Bu müddətdə isə, təbii ki, diqqət daha çox adaptasiyaya yönəldiyindən proqram üzrə dərslərin keçilməsi bəzi hallarda effektiv olmurdu. Ancaq indi vəziyyət başqadır və təhsildə bu yeniliyin təbiqini təqdir edirəm.

Digər valideyn Sevinc Mustafayeva da bildirir ki, belə hazırlıq qrupları uşaqların zehni inkişafı üçün mühüm mərhələdir. Çünki uşaqlar fərqli ailə mühitlərində böyüdükləri üçün bəzən valideynlər onların müəyyən biliklərə yiyələnməsində rol oynaya bilmirlər. Çox zaman pedaqoji və psixoloji biliklərin yetərsizliyi uşaqları düzgün yönləndirməyə imkan vermir. Amma məktəblərdə bu sahədə mütəxəssislərin olması, eyni zamanda kollektivçilik uşaqlara daha çox fayda verir. Yaxud da müasir dövrdə valideynlərin işlə əlaqədar olaraq vaxt azlığı da uşaqların hərtərəfli böyüməsinə müəyyən çətinliklər yaradır. Bütün bunlar məktəbəhazırlıq qruplarının uşaqların məktəb həyatına hazırlığında əhəmiyyətli rol oynadığını bir daha təsdiq edir.

Müşahidələrimizdən də gördük ki, məktəbəhazırlıq qruplarına maraq böyükdür, valideynlər uşaqlarını həvəslə məktəbə gətirirlər. Ümumtəhsil müəssisələrində 5 yaşlılarla iş metodikasını dərindən bilən mütəxəssislərimiz də kifayət qədərdir.

Qeyd edək ki, uşaqların məktəbə intellektual hazırlığı dedikdə, heç də onun oxuyub-yazmaq, misal həll etmək, çoxlu şeirlər söyləmək və sair bu tipli bacarıqları nəzərdə tutulmur. Əsas məsələ bu yaşda uşaqlara müşahidə, təhlil, qiymətləndirmə, sualqoyma, qərarvermə kimi ilkin vərdiş və bacarıqları aşılamaqdır.

Müəllimin sözlərinə görə, onlarda təfəkkür konkretdir. Sadə riyazi təfəkkürünü inkişaf etdirmək istədiyimiz uşaqlara imkan verməliyik ki, əlləri ilə toxuna biləcəyi oyuncaqlarla işləsin – onları bir yerə toplasın, gizlətsin, dolablara yığsın və sair.

Bəli, bu gün dövlət vəsaiti hesabına beşyaşlıların məktəbəhazırlıq qruplarının fəaliyyətə başlaması təhsildə irəli atılan əhəmiyyətli addımlardan biridir. Ümid edirik ki, müəllimlər də bu yolda öz bilik və bacarıqlarını əsirgəməyəcək, qarşıya qoyulan vəzifələrə nail olmaq üçün səylə çalışacaqlar.

**Gülcamal TAHİROVA**

*Naxçıvan Qarnizonunda peşəkar hərbçilər yetişdirən ixtisas hazırlığı kurslarının uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.*

## Buraxılış mərasimi keçirilib



Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edən zabitlər gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarını bitirən gənclərə xidmətlərində uğurlar arzulayıblar. Məzunlar kurslarda əldə etdikləri bilik və bacarıqla peşəkar hərbçi kimi Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaqlarına söz veriblər. Mərasimdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb.

Sonra məzunlara sertifikatlar təqdim edilib və kurs birinciləri tərəfindən xatirə lövhələrinə buraxılış emblemləri vurulub.

Sonda məzunların tribuna önündən təntənəli keçidi olub.

## *“Vətənimiz Azərbaycanı tanıyaq”* mövzusunda viktorina

*Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında “Vətənimiz Azərbaycanı tanıyaq” mövzusunda viktorina keçirilib. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən intellekt mübarizəsində 4 komanda yarışıb.*



Kursantların Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə təşkil edilən viktorina 3 mərhələdə keçirilib. Suallararası fasilələrdə videoçarxlar nümayiş olunub, kursantlar Vətənə həsr olunmuş mahnı və şeirləri səsləndirib, müxtəlif səhnəcikləri canlandırıblar. Məktəbli qızlar rəqs nümunələri ilə çıxış ediblər.

“Qələbə”, “Mübariz”, “Qarabağ” və “Zəfər” adlı komandaların yarışdığı viktorinanın qalibi “Qələbə” komandası olub. Qalib komandanın üzvləri və tədbirdə fəal iştirak edən məktəblilər mükafatlandırılıblar.

## Hərbi hissələrə növbəti dəfə 2 tona yaxın sarımsaq təqdim edilib

Kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar tərəfindən hərbi hissələrə növbəti dəfə 2 tona yaxın sarımsaq təhvil verilib. Kəngərli rayonunun Şahtaxtı kənd sakini Rüfət İsmayılov 1250 kiloqram və Şərur rayonunun Dərvişlər kənd sakini Etibar Şahtaxtinski 600 kiloqram sarımsağı hərbi hissələrə veriblər.



Tədbirdə dövlət qayğısından və xalq-ordu birliyindən danışan hərbi hissənin zabiti Elvin Xəlilov və əsgər Taryel Məhərrəmov minnətdarlıq ediblər.

**Nəriman NƏCƏFOV**

## Dram kollektivlərinin ifaçılıq müsabiqəsinin qalibləri mükafatlandırılıb



*Dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” devizi altında muxtar respublikamızda ilk dəfə keçirilən dram kollektivlərinin ifaçılıq müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi olub.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, teatr binaları yenidən qurulub və ya əsaslı təmir olunaraq istifadəyə verilib.

Naxçıvanda teatr sənətinin inkişafına xidmət edən yaradıcılıq müsabiqələrinin əhəmiyyətindən danışan nazir diqqətə çatdırıb ki, dram kollektivlərinin ifaçılıq müsabiqəsinin seçim turunda, ümumilikdə, 25 kollektiv, Naxçıvan şəhərindən 9, Ordubad rayonundan 6, Babəkdən 3, Şahbuzdan 3, Culfadan 2, Kəngərli və Sədərək rayonlarından 1 kollektiv iştirak edib. Dram kollektivlərinin ifaçılıq müsabiqəsinin seçim turunun birinci mərhələsi bu ilin oktyabrında Naxçıvan və Ordubad şəhərlərində keçirilib. Naxçıvan şəhəri, Babək, Ordubad, Şahbuz, Kəngərli, Culfa və Sədərək rayonlarından, ümumilikdə, 25 dram kollektivi iştirak edib. Bu seçim turunda Naxçıvan şəhərindən “Nur” və “Sabit”, Culfa rayonundan “Haçadağ”, Babək rayonundan “Gənclik” və “Səbinə”, Ordubad rayonundan “Gilançay” dram kollektivləri əsas tura vəsiqə qazana biliblər. Noyabrın 28-də isə Naxçıvan Dövlət Uşaq Teatrının səhnəsində müsabiqənin əsas turu keçirilib, münsiflər heyətinin qərarına əsasən Culfa rayonunun “Haçadağ” dram kollektivi I, Babək rayonunun “Səbinə” dram kollektivi II, həmin rayonun “Gənclik” dram kollektivi isə III yerə layiq görülüblər.

Sonra ifaçılıq müsabiqəsində fərqlənmiş kollektivlər diplomlarla təltif ediliblər.

Mükafatlandırma başa çatdıqdan sonra Naxçıvan Dövlət Uşaq Teatrı “Bu günün çay dəsgahı” tamaşasını təqdim edib.

## Təqaüdçülər klubunda konsert

*Dünən 2 nömrəli Təqaüdçülər Klubunda Naxçıvan Musiqi Kollecinin “Buta” muğam ansamblının konserti olub.*

Ansamblın xanəndələri Yamil Vəliyev, Xaliq Həsənov, Kənan Cəfərovun ifasında muğam və təsniflər, xalq mahnıları ifa olunub. Ansamblın üzvləri sazçalanlar Sahil Xudaverdiyev və Nihad Xudaverdiyevin ifasında səslənən “Ruhani”, “Dilqəmi”, “Baş sarıtel” saz havaları konsert iştirakçılarında xoş ovqat yaradıb.



Konsertdə “Sarı gəlin”, “Qara qaşın vəsməsi” xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları səsləndirilib. İfaçıları balabanda Sərxan Əliyev, kamançada Nurlan Nuriyev və başqa musiqiçilər müşayiət ediblər.

**Əli RZAYEV**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Qədim mədəniyyətimizin, zəngin mənəviyyatımızın güzgüsü

## *"Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib*






*Xalqımıza məxsus olan, yüz illər, min illər yol keçib gələn adət-ənənələr, folklor nümunələri bu gün də yaşadılır. Laylalar, oxşamalar, bayatılar, əfsanələr, rəvayətlər müxtəlif dövrlərdə və mərasimlərdə yaradılaraq, el-el, oba-oba gəzib dolaşaraq xalqımızın əvəzsiz mənəvi dəyərlərinə, milli kimliyinin rəmzinə çevrilib. Muxtar respublikada bu qiymətli sərvətin daha geniş tədqiqi və təbliği onu gələcək nəslə olduğu kimi çatdırmaq məqsədi daşıyır. Ali Məclis Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamı milli dəyərlərimizə, xalqımızın əsrlərboyu yaratdıqlarına, folklora böyük diqqət və ehtiramın ifadəsidir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə yallı sənətinin öyrənilməsi, yaşadılması və təbliği məqsədilə kompleks tədbirlər həyata keçirilib. Yallılar ilk dəfə nota köçürülüb, onun əsasında "Naxçıvan-Şərur el yallıları" kitabı nəşr olunub. 21 yallı qrupunun fəaliyyət göstərdiyi muxtar respublikada "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti üçün hər cür şərait yaradılıb, ansamblın ifasından ibarət kompakt disklər hazırlanıb. Bu xalq yaradıcılığı növünün kütləvi təbliği məqsədilə 2014-2016-cı illərdə yallı festivalları keçirilib.

Oğuz ellərinin həyat tərzi, məişəti, dünyagörüşü "Kitabi-Dədə Qorqud" dastanlarında sözlə, fikirlə, yallılarda isə ritmik hərəkətlərlə ifadə olunub. Hər bir yallı növü də xüsusi məna və məzmun daşıyır. Xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, milli həmrəyliyini və sülhpərvərliyini özündə yaşadır.

Tədqiqatçıların fikrincə, yallı 8-10 min il bundan əvvəl yaranıb. Heç şübhəsiz ki, onun yaranması yazılı mədəniyyətin formalaşmasından əvvəlki dövrlərə təsadüf edib. İlkin yallılar oda, atəşə pərəstiş dövründə yaranıb, od-ocaq ətrafında toplanan mərasimlərdən ibarət olub. Bu deyilənləri tariximizin ən böyük daş kitabələri olan Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində də görmək mümkündür. Xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi: ***"Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz".*** Bu gün şöhrəti dünyanı dolaşan Şərur yallıları da hər yerdə maraqla izlənilir.

Şərurda ilk yallı qrupu 1924-cü ildən fəaliyyət göstərir. Həsənbəy adlı yengicəli bir ziyalı öz həmkəndlilərini, rayonun digər yaşayış məntəqələrinin istedadlı gənclərini başına toplamış, unudulmaqda olan yallılarımıza yeni nəfəs vermiş, səhnəyə çıxarmışdır.

1937-ci ildə Cəlilkənd Seçki Dairəsindən SSRİ Ali Sovetinə deputatlığa namizədliyi irəli sürülən, seçiciləri ilə görüşdə Şərur yallılarını xüsusi heyranlıqla izləyən Üzeyir Hacıbəyovun təşəbbüsü ilə 1938-ci ildə "Şərur" Yallı Ansamblı Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə dəvət alır və burada böyük uğur qazanır. O vaxtdan yallı ansamblı tez-tez muxtar respublikanın şəhər və rayonlarına, kəndlərinə qastrola çıxır, bayram tədbirlərində rəngarəng proqramlarla çıxış edir.

Kollektiv dünyanın bir çox ölkələrində keçirilən festivallarda iştirak edərək diplom və mükafatlara layiq görülüb. 1970-ci ildə Bakı şəhərində keçirilən "Naxçıvan mədəniyyəti günləri"ndə muxtar respublikanı təmsil edən kollektivlər sırasında bu ansambl da olub. Respublika Sarayındakı yekun tədbirdə iştirak edən ulu öndər Heydər Əliyev konsertdən sonra səhnə arxasında ifaçılarla söhbət edərkən bu ansamblın çıxışından razı qaldığını bildirib, tövsiyə və tapşırıqlarını verib: ***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir... Yallını qoruyub saxlayın. Bu, Naxçıvanın tacıdır"***, – deyib.

1972-ci ildə Almaniya Demokratik Respublikasında keçirilən Ümumdünya folklor festivalı ansamblın üzvləri üçün yaddaqalan olub. Ansamblı beynəlxalq əhəmiyyətli tədbirə məşhur rəqqasə, Azərbaycan Respublikasının Xalq artisti Əminə Dilbazi hazırlayıb. O, öz xatirələrində yazırdı: "Məndən soruşdular: SSRİ-ni Almaniyada hansı folklor kollektivi təmsil edə bilər? Qərara gəldik ki, Naxçıvan yallısını aparaq. Mən bilirdim ki, bizim yallı mənbəyimiz Naxçıvanda, Şərur torpağındadır... Biz Almaniyaya elə bir folklor nümunəsi aparmalıydıq ki, üstündə xalqımızın möhürü olsun. Bu, Şərur yallısı idi..."

Uğurlu çıxışlarına görə ansambl festivalın laureatı adını qazanır. Həmin il ansambl Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunur, kollektivə "Xalq Yallı Ansamblı" statusu verilir. Məhz o dövrdə ümumittifaq televiziyası tərəfindən "Şərur yallısı" sənədli filmi çəkilir.

Bu gün də kollektiv kənd-kənd, oba-oba gəzir, qədim rəqslərimizi, yallılarımızı toplayaraq repertuarını daha da zənginləşdirir. Hazırda onların proqramında "Köçəri", "Tənzərə", "Qaladan-qalaya", "Tello", "Xələfi", "Dördayağı", "Urfanı", "Qazı-qazı", "Tirməşal", "Dönə-dönə", "Hoynəri", "Gülümey", "Haxışta" və sair kimi 40-dan artıq yallı rəqsi vardır.

Azərbaycan Dövlət İncəsənət Universitetinin məzunu Kimya Babayeva 1979-cu ildən taleyini bu kollektivə bağlayıb, "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti", "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adlarına, Prezident mükafatına layiq görülüb. O, 2005-ci ildən "Şərur" Xalq Yallı Ansamblına rəhbərlik edir. Kimya Babayevanın dediklərindən: – Şərur yallılarının şöhrətlənməsində ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətləri vardır. O, bu ansamblın fəaliyyəti ilə daim maraqlanır, qayğısını əsirgəmirdi. Dahi şəxsiyyət hər zaman yallılarımıza böyük maraqla tamaşa edir, kollektivə mənəvi dayaq olurdu. "Şərur" Xalq Yallı Ansamblı bu gün də diqqət və qayğıdan kənarda deyil. Bu qədim ansambl haqqında Ali Məclisin Sədri yüksək fikir söyləmişdir: ***"Naxçıvanın üç incisi bizim üçün xüsusilə əzizdir: Əshabi-Kəhf, Gəmiqaya və Şərur yallıları. Biz bu inciləri qoruyub saxlamalıyıq".***

Göstərilən diqqət və qayğı "Şərur" Xalq Yallı Ansamblının daha böyük uğurlar qazanmasına zəmin yaradır.

Xalq Yallı Ansamblı Almaniya ilə yanaşı, 1984-cü ildə Polşada, 2001-ci ildə Misirdə keçirilən beynəlxalq folklor festivallarının da laureatı olub. Ansambl 1980-ci ildə Macarıstanda keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə, 1987-ci ildə Türkiyədə keçirilən folklor bayramında, 1998-ci ildə həmin ölkədə təşkil olunan "Dədə Qorqud festivalı"nda maraqlı konsert proqramları ilə çıxış edib. 2001-ci ildə Misir Ərəb Respublikasında "Qızıl açar" mükafatına layiq görülmüş ansambl 2002-ci ilin iyun ayında İstanbulun böyük rayonlarından biri olan Pendikdə keçirilən mədəniyyət və incəsənət bayramında öz ustalıqlarını bir daha nümayiş etdiriblər. "Şərur" Xalq Yallı Ansamblı 2005-ci ilin may ayında İstanbul şəhərində keçirilən folklor festivalında 57 ölkəni təmsil edən kollektivlər arasında birinci yeri tutub, festivalın mükafatı və diplomu ilə təltif olunub. 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi ilə bağlı Moskvada keçirilən Naxçıvan günlərində Şərurun yallı kollektivi öz məharətini göstərib. Kollektivin üzvləri 2010-cu ilin iyul ayının əvvəllərində Ərdahan vilayətində "Atatürkün izində, kölgəsində Damal şənlikləri" festivalında da müvəffəqiyyətlə iştirak ediblər. Kollektiv 2010-cu ilin avqust ayında Türkdilli xalqların mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq təşkilatı TÜRKSOY-un dəstəyi və Türkiyənin Ağrı şəhər valiliyinin təşkilatçılığı ilə keçirilən "Ağrı mədəniyyət və sənət günləri" tədbirindən də mükafatla qayıdıb.

2012-ci ildə Masallıda keçirilən beynəlxalq folklor festivalına qatılan ansambl 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə bağlı Polşa Respublikasının Krakov şəhərində keçirilən tədbirdə, 2015-ci ildə Respublika Günü münasibətilə qardaş Türkiyənin Qars şəhərində çıxış edib. Həmin il Salyan şəhərində Muğan Babazanlı abidələrinin 2 min 800 illik yubileyində də Şərur yallıları alqışlarla qarşılanıb. Ümumiyyətlə, səsi-sorağı dünyanı dolaşan Şərur yallılarının uğurlarını sadalamaqla qurtaran deyil.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, iki dəfə Prezident mükafatı olan Səttar Əhmədov:

– Kollektivə müxtəlif illərdə məşhur rəqs ustası və baletmeysterlərdən Əlibaba Abdullayev, Əminə Dilbazi, Roza Cəlilova, Aliyə Ramazanova və Əli Əşari yaxından kömək edib və rəqqasların ustalığının, ifaçılıq texnikasının artırılmasına, repertuarın zənginləşməsinə köməkliklərini əsirgəməyiblər. Kollektivin tərkibinə istedadlı gənclərin cəlb edilməsində, qədim yallı və rəqslərimizin toplanmasında və repertuarın zənginləşdirilməsində yerli bədii rəhbərlərin də əməyi mühüm əhəmiyyət kəsb edir. Müxtəlif illərdə rayonun tanınmış incəsənət adamları Bahaddin Əsgərov, Vasif İbrahimov, Əli Əsgərov, Səfər Qəhrəmanov, Yusif Həsənov, Nərminə Seyidova – bu siyahını uzatmaq da olar – ansamblın bədii rəhbəri işləyiblər. İndiki nəslin yaddaşında Azad Ramazanov, Rəna Əliyeva, İsa Mustafayev, Mirmahmud Seyidov, Çinarə və Kəmalə Babayevalar və digərləri gözəl yallı ifaçısı kimi qalıb. Kollektivi vaxtilə tulumda Məmməd Yaqubov, zurnada Hatəm Məmmədov və Nəsrulla İsmayılov, nağarada isə Eldar Nəcəfov müşayiət ediblər.

Ansamblın bədii rəhbəri, Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident mükafatçısı Əfsər Novruzov deyir ki, biz kənd-kənd, oba-oba gəzir, yallılarımızı toplayır, öyrənir, repertuarımızı daha da zənginləşdiririk. Ömürlərinin ahıl çağını yaşayan insanlarda xeyli bilgilər var. Onların köməyi ilə unudulmaqda olan 4-5 yallı bərpa edilib. Hazırda isə repertuarımızda ifa tərzi ilə bir-birindən fərqlənən 40-dan çox yallı və rəqs özünə yer tutub. Hər il ansambla istedadlı gənclər qəbul edilir. Onlar Şərur yallılarını dünya xalqlarına tanıtdıran və sevdirən keçmiş ifaçıların yolunun layiqli davamçılarıdır.

Ağsaqqallardan ibarət "Nurani" ansamblı, uşaqlardan təşkil olunmuş "Şərur qönçələri", eləcə də "Şərur" yallı kollektivləri son illər muxtar respublikamızın müxtəlif rayonlarında yaradılan yallı ansamblları üçün bir təcrübə məktəbi rolunu oynayırlar.

Yallı təkcə musiqi və rəqs növü deyil. O, qədim oğuz-türk tarixinin başlıca möhürlərindən biri olmaqla yanaşı, xalqımızın həm də bugünkü varlığıdır. Məhz bu mənəvi sərvətlərimiz ilə milli varlığımızı qoruyub saxlaya bilirik. Şərur yallı kollektivləri də muxtar respublikamızın folklorunu qoruyur, yaşadır, onu dünyaya tanıdırlar. Kollektiv üzvləri xalqın nadir incilərinin daim yaşaması üçün təcrübələrini böyük səy və həvəslə öyrədirlər.

Bu günlərdə milli dəyərlərimizin tərkib hissəsi olan yallılarımızı yaşatmaq, dünyada təbliğ etmək istiqamətində daha bir əhəmiyyətli uğur qazanılıb. Ali Məclis Sədrinin tapşırığına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparıb, bu irsin UNESCO səviyyəsində qorunması sahəsində tədbirlər həyata keçirib, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunub. Nəticədə, 2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilmiş Qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi bu qədim xalq yaradıcılığı ilə məşğul olanları ikiqat sevincə səbəb olub. Bu, dünyanın qədim yaşayış məskənlərindən biri – Şərurun zəngin folklor örnəklərindən olan yallının buranın qədim rəmzi olduğunu dünya miqyasında bir daha təsdiqlədi.

*Ölkəmizin qədim və tarixi diyarı olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə, xalq yaradıcılığına dünya miqyasında işıq salınması və tanıdılması, bu ənənələrin UNESCO səviyyəsində qorunması, Şərur, ələlxüsus "Köçəri" yallısını öz adına çıxmağa çalışan Ermənistanın "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin qarşısının alınması bütün naxçıvanlılarda sevinc və qürur doğurmaqla yanaşı, Şərur rayonunun yallı kollektivlərini də yeni yaradıcılıq uğurlarına ruhlandırıb. Muxtar respublikada yallılarımızın yaşadılması, tədqiqi və təbliğinə Şərurun yallı kollektivləri bundan sonra da sanballı uğurları ilə öz töhfələrini verəcəklər.*

**Elman MƏMMƏDOV**
**✍ Ramiyyə ƏKBƏROVA**

# Boks üzrə ölkə birinciliyində 3 medal

Kişi boksçular arasında Azərbaycan çempionatı başa çatıb. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 28 komandanın 138 boksçusu qüvvəsini sınayıb. 6 gün davam edən turnirdə 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

Boks mərkəzində təşkil olunan çempionatda Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının idmançıları da mübarizə aparıblar. Ən uğurlu nəticəni 56 kiloqram çəki dərəcəsində mübarizə aparan Tayfur Əliyev əldə edib. Belə ki, dəri əlcək sahibimiz final görüşündə "DİN" İdman Cəmiyyətinin boksçusu Ümid Rüstəmovu məğlub edərək ölkə birinciliyinin qalibi olub.

60 kiloqram çəki dərəcəsində isə Sərxan Əliyev finala kimi itkisiz irəliləyib. O, yalnız həlledici görüşdə "Qəbələ" İdman Klubunun boksçusu Elvin Çələbiyevə məğlub olaraq ölkə birinciliyini ikinci pillədə başa vurub. Digər dəri əlcək sahibimiz Eldar Quliyev isə bürünc medal qazanıb.

Qeyd edək ki, mükafatçılar yığmanın heyətinə cəlb olunacaq və beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcəklər.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Türkiyə vətəndaşı Bahar Abdullah İsa oğlunun adına olan Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 876